# AQRAR KOOPERASİYANIN MODERN İNKİŞAF YOLLARI



*Azərbaycan Respublikasında kooperativ sektorun, xüsusən də aqrar kooperasiyanın yeni dövrün tələblərinə uyğun modern inkişafı istiqamətində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən düzgün müəyyən edilmiş yeni strateji xəttin uğurla həyata keçirilməsi üçün bu gün dövlət tərəfindən maksimum səy və lazımi dəstək göstərirlərək, məqsədyönlü tədbirlər həyata keçirilməyə başlanılmışdır. Bu tədbirlər içərisində ən mühüm hesab olunanı isə, ilk növbədə, göstərilən istiqamətlərə uyğun zəruri qanunvericilik bazasının yaradılmasıdır. Belə ki, dövlət başçısı tərəfindən 14 iyun 2016-cı ildə qəbul edilmiş "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu və 14 iyul 2017-ci il tarixli "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" xüsusi qeyd olunmalıdır. Burada önəmli olan cəhət odur ki, kooperasiya yönümlü modern fermer təsərrüfatlarının, həmçinin aqroemal qurumlarının böyük hissəsinin ölkə regionlarında yaradılmasında əsas məqsəd—məhz kənd ərazilərinin infrastruktur səviyyəsini daha da yaxşılaşdırmaq, eləcə də şəhərlə kənd arasıdakı fərqləri tədricən aradan qaldırmaqdan ibarətdir.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr edilən iclasındakı çıxışında qeyd etdiyi aşağıdakı fikirlər xüsusi əhəmiyyət kəsb edir: "...kənd təsərrüfatı qarşısında duran əsas vəzifə bu sahəni yüksək texnoloji sahəyə çevirməkdir. Bəzilərində belə təsəvvür var ki, kənd təsərrüfatı, necə deyərlər, elə ənənəvi qayda ilə inkişaf edə bilər. Bu, qətiyyən belə deyil. Bu gün dünyada elə texnologiyalar var ki, məhsuldarlığı bir neçə dəfə artırır. Biz həm aqrotexniki tədbirlərlə bağlı texnologiyaları, həm də su ilə təminat texnologiyalarını Azərbaycana gətirməliyik. Elə müasir suvarma sistemləri var ki, hər bir qarış torpaqdan maksimum səmərə ilə istifadə olunur. Bax, bu texnologiyaları biz Azərbaycana gətirməliyik və elektron kənd təsərrüfatı sistemini nəhayət ki, tətbiq etməliyik. Baxmayaraq ki, mən dəfələrlə bu məsələ ilə bağlı öz tapşırıqlarımı vermişdim, elektron kənd təsərrüfatı sistemi Azərbaycanda istədiyimiz formada, lazım olan formada mövcud deyil. Problemlər də məhz bundan qaynaqlanır". Daha sonra dövlət başçısı konfransda qeyd etmişdir ki, ona görə də ən müasir texnologiyalar tətbiq edilməlidir. Xarici mütəxəssislər cəlb edilməlidir. Bu istiqamətdə artıq işlər görülür. Biz hər bir qarış torpaqdan səmərəli istifadə etməliyik. Mən dəfələrlə demişəm, kənd təsərrüfatı Azərbaycanda müəyyən dövrdən sonra ancaq intensiv yollarla inkişaf edə bilər. Biz hazırda böyük meliorasiya tədbirlərini görürük ki, suvarılmayan daha böyük torpaqlara su gətirək. Biz buna nail olacağıq. Ancaq bizim torpaq, yəni, ərazi imkanlarımız o qədər də geniş deyil. Ona görə, ancaq səmərəli kənd təsərrüfatının inkişafı və yeni texnologiyaların tətbiqi nəticəsində biz istədiyimizə nail ola bilərik.

Aqroparkların yaradılması ilə bağlı dövlət başçısı qeyd edib ki, doğrudan da, böyük fermer təsərrüfatlarının qurulması bu sahədə dönüş yaratdı. Bu yaxınlarda mənə aqroparkların fəaliyyəti ilə bağlı geniş məruzə edildi. Dörd aqropark fəaliyyətdədir. Dördündə də açılışda olmuşam. On dörd aqropark isə bu ilin sonuna qədər istifadəyə veriləcək. Bitkiçiliklə məşğul olan bu aqroparklarda məhsuldarlıq ən yüksək səviyyədədir - taxılçılıqda minimum 50 sentnerdir. Orta göstərici isə, - bu gün hələ biçin gedir, - hələlik 30 sentnerdir. Bu da əvvəlki dövrə nisbətən məqbul rəqəmdir. Ancaq Azərbaycanda orta məhsuldarlıq da ən yüksək səviyyədə olmalıdır".

Dövlət başçısının kənd təsərrüfatının səmərəli inkişafı ilə bağlı etdiyi çıxışlarda, aqrar sahənin modernləşməsi və mütərəqqi təsərrüfatçılıq formalarının tətbiqinin zəruriliyi məsələləri daim ön plana çəkilir. Təbii ki, bu və digər kənd təsərrüfatı sahələrinin modernləşmə yönümlü dayanıqlı inkişafında aqrar kooperasiya münasibətləri mühüm rol oynayır.

"Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 14 iyun 2016-cı il tarixli Qanunu qəbul edildikdən sonra iqtisadiyyatın davamlı inkişafı, xüsusən də qeyri-neft sektorunun sürətli inkişafı ilə bağlı, ölkəmizdə artıq başlanmış müsbət tendensiyalar, yuxarıda qeyd edilən prosesləri daha da sürətləndirmişdir. Qəbul edilmiş bu Qanunun əsas məqsədi aşağıdakı kimi təsbit edilmişdir: "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları istehsalçılarının könüllü birləşməsi əsasında iri kənd təsərrüfatı müəssisələri yaratmaq, onların istehsal potensialından səmərəli istifadə etməklə rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və məhsuldarlığı artırmaq, kənd təsərrüfatı kooperasiyasının formalaşmasına və inkişafına təkan vermək, kooperasiya iştirakçılarının iqtisadi, sosial və digər maraqlarını qorumaqdır".

Yeni qanuna əsasən, dövlət kooperativlərin bütün növlərinə və fəaliyyətinə şərait yaradır, iqtisadi müstəqilliyinin möhkəmlənməsini dəstəkləyir, təsərrüfat fəaliyyətinin və təşəbbüslərinin məhdudlaşdırılmasının qarşısını almaqla yanaşı, onların xidmətlər bazarında sərbəst iştiraklarını təmin edir, xüsusən də güzəştli kreditlər ayırmaqla stimullaşdırır. Ən başlıcası isə budur ki, onların hüquqlarının qorunmasına təminat verir. Həmçinin burada kooperativ sektorda fəaliyyət öz xarakterinə görə üç növdə təsnifatlaşdırılır ki, bunlara da aşağıdakılar aiddir: istehsal kooperativləri, istehlak kooperativləri, istehsal-istehlak (qarışıq) kooperativlər. Qanunun 6-cı maddəsinə görə, "istehsal kooperativlərində görülən işlərin ən azı 70%-i kooperativ üzvləri tərəfindən yerinə yetirilməlidir. İstehsal kooperativlərində muzdla işləyən işçilərin əməyindən istifadə oluna bilər. Bu işçilərin sayı (mövsümi işlərə cəlb olunanlar istisna olmaqla) kooperativin üzvlərinin sayının 30 faizindən çox olmamalıdır.

Bütövlükdə, aqrar kooperasiya fəaliyyəti haqqında analoji qanunvericilikdə bu fəaliyyət növünün əsas mahiyyəti, məzmun elementləri, o cümlədən fəaliyyət istiqamətləri öz əksini tapmışdır.

Bununla yanaşı, 14 iyul 2017-ci il tarixdə qəbul edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda da kənd təsərrüfatı kooperasiyası sahəsində mövcud vəziyyət, qlobal meyillər, onun mahiyyəti və əsas xüsusiyyətləri, rolu və üstün cəhətləri, həmçinin, Dövlət Proqramının məqsəd və vəzifələri göstərilmiş, gözlənilən nəticələr əks olunmuşdur. Proqramda göstərildiyi kimi, "...kənd təsərrüfatında mövcud resurslardan səmərəli istifadə edilməsi, eyni zamanda kooperativ təsərrüfatlarda becərilən bitkilərin məhsuldarlığının yüksəldilməsinə, məhsul vahidinin maya dəyərinin azaldılmasına, istehsalın genişləndirilməsi və daxili investisiya qoyuluşu üçün sərbəst maliyyə ehtiyatının yaranmasına və təsərrüfatın rentabelliyinin artmasına imkan verəcək. Buna görə də xırda təsərrüfatların birləşməsi, aqrar istehsalat kooperativlərinin, birliklərin və ittifaqların yaradılması əsas məsələlərdən biridir.

Tam əminliklə qeyd edə bilərik ki, kənd təsərrüfatı kooperasiyası haqqında Qanun və Dövlət Proqramının qəbul edilməsi aqrar kooperativlərin, eləcə də digər kooperativ növlərinin yaradılması və inkişaf etdirilməsi prosesinə çox güclü təkan verəcək. Azərbaycan yenidən Qafqazda ipəkçilik, pambıqçılıq, taxılçılıq, tütünçülük, heyvadarlıq, üzümçülük, şərabçılıq, zəfəran, qoz-fındıq, badam və zeytun yetişdirmə, balıqçılıq və digər sahələrdə özünün əvvəlki şöhrətini tam bərpa edərək, həmin məhsulların nəhəng ixracatçısına çevriləcəkdir ki, bu da olkə iqtisadiyyatının neftdən asılılıq amilini yox dərəcəsinə endirəcəkdir.

Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, professor Eldar İbrahimov hesab edir ki, "...istehsalçıdan başlayıb son istehlakçıya qədər davam edən bir prosesin səmərəliliyini təmin edəcək yeganə sistem kooperasiyadır. Əhalinin böyük bir hissəsi onlara verilən torpağı əkib-becərə bilmir. Pullu adamlar isə, əkib-becərsələr də, səriştəsizlik üzündən qazanc əldə edə bilmirlər. Vəziyyətdən çıxış yolu isə, xarici təcrübədə olduğu kimi, kooperativlər yaratmaqdır. Biz istəyirik ki, fermerlər birləşib, inkişaf etsinlər, əkib becərsinlər və məhsullarını bazara çıxarmaqla, bazarda qiymətləri aşağı salsınlar".

Yuxarıda göstərilənlərə uyğun son dövrlər aqrar sahənin idarə olunmasında geniş institusional-struktur dəyişikliklərin aparılması diqqəti cəlb edir. Xüsusən diqqəti cəlb edən məqam odur ki, bu yaxınlarda Kənd Təsərrüfatı Nazirliyinin strukturunda yeni—fermerlər, assosiasiyalar və kooperativlərlə iş şöbəsi yaradılmışdır. İnanırıq ki, bu şöbə aqrar təsərrüfat subyektləri, o cümlədən kooperativ qurumlarla daha sıx fəaliyyəti təmin edərək onların bütün qayğı və ehtiyaclarının operativ həllinə təkan verəcəkdir...

Oxucularımızda kooperasiyanın, xüsusən də aqrar kooperasiyanın keçmiş inkişafı haqqında müəyyən təsəvvür yaratmaq məqsədi ilə iqtisadi tariximizə bir qədər ekskurs etmək istərdik. Bu məsələlərlə bağlı Azərbaycanın tanınmış kooperasiya, xüsusən də istehlak kooperasiyası hərəkatı üzrə tədqiqatçısı alim, professor Ə.C.Qaravəliyev "Azərbaycanda kooperasiyanın inkişaf tarixi" adlı monoqrafiyasında yazırdı ki, "...neft sənayesi kapitalın tətbiq olunduğu ən faydalı sahələrdən birinə çevrildikdə, Azərbaycan özünün zəngin sərvətləri və əlverişli iqtisadi-coğrafi mövqeyi ilə Rusiyanın, habelə başlıca kapitalist ölkələrinin diqqətini daha çox cəlb etməyə başladı. Rusiyadan və bir sıra Avropa ölkələrindən Azərbaycana kapital axıb gəlməyə başladı. Yerli kapitalla yanaşı, xarici kapiital birinci növbədə neft sənayesində, sonra isə, onunla əlaqədar olan neft avadanlığı və təmiri sahəsində, yerli xammal ehtiyatlarının işə salınması əsasında metal hasilatı, duz, balıq sənayesi sahələrində kənd təsərrüfatı xammallarının emalı əsasında, ipəkçilik, şərabçılıq, tütünçülük, pambıqtəmizləmə və digər yeyinti, yüngül sənaye müəssisələrində fəaliyyətə başladı. Neft hasilatı, neft emalı sənayesi ilə birlikdə Bakının özündə, Azərbaycanın müxtəlif qəzalarında təbii sərvətlərdən və kənd təsərrüfatı xammalından istsfadə etmək əsasında kapitalist tipli bir çox sənaye müəssisələri meydana gəldi".

Qeyd etmək yerinə düşər ki, kənd təsərrüfatı istehsal kooperativləri dünyanın bütün qabaqcıl ölkələrində iqtisadiyyatın davamlı inkişafında və tamamilə yeni tipli kəndlli təsərrüfatlarının formalaşmasında müstəsna rol oynamış və oynamaqdadır. Kooperasiya sahəsində dünyada tanınmış iqtisadçılardan biri olan Tuqan Baranovski bu gün də hələ bizim üçün çox önəmli olan fikirlər söyləyərək yazırdı ki, "...kənd təsərrüfatı kooperasiyası yeni növ ictimai idarə oluna bilən bir təşkilata çevrilməyi bacarır. Kooperasiya kənd əməkçisini (kəndlini) özfəaliyyətə və bir birilərinə köməyə alışdırır, onlarda olan ictimai hissi daha da inkişaf etdirir, ən başlıcası isə, onlarda əqli mədəniyyət və iqtisadi təfəkkür formalaşdırır... Kəndli təsərrüfatlarının özlərinə gəldikdə isə, kooperasiyanın köməyi ilə onlarda əvvəlki pərakəndəlik əvəzinə, güclü ictimai əlaqələr qurulur, bu əlaqələr isə, tədricən genişənir və təkcə bir kəndin təsərrüfatları arasında deyil, həmin kooperasiya ittifaqları vasitəsi ilə, əhali arasında da yaranır. Kənd təsərrüfatı kooperasiyası kəndli təsərrüfatlarında əmək məhsuldarlığını əhəmiyyətli dərəcədə yüksəltməklə onların rəqabətqabiliyyətlilik səviyyəsini xeyli artırır".

Heç də təsadüfi deyildir ki, kooperasiya hərəkatının zəruriliyi və əhəmiyyəti ən yüksək beynalxalq səviyyələrdə də xüsusi vurğulanmışdır. BMT-nin keçmiş Baş katibi Pan Gi Mun Baş Assambleyanın 66 saylı iclasında müasir dünyada kooperativlərin rolunu xüsusi vurğulayaq demişdir: "kooperativlərin sosial-iqtisadi inkişaf sahəsinə töhfəsi bundan ibarətdir ki, onlar bir müəssisə kimi öz üzvlərinə mənsubdurlar və məhz onların mülkiyyətindədirlər. Bu gözəl xüsusussiyyətə görə kooperasiyalaşmada elə forma və metodlardan istifadə edilir ki, son nəticədə əhalinin az təminatlı qrupları özlərinin hüquq və imkanlarının cəmiyyətdə genişləndirilməsinə nail ola bilir, bununla da müxtəlif əhali qrupları və icmalarının iqtisadi müstəqilliyinə və icmalararası əməkdaşlığına şərait yaratmağa nail olurlar. Kooperativlər, öz üzvləri üçün müəyyən bir iqtisadi fəaliyyətlə məşğul olduqda, eyni zamanda, həmin üzvlərin sosial-iqtisadi inkişafını da təmin etmiş olurlar".

Beynəlxalq Kooperasiya Alyansının məlumatlarına görə, bu gün dünya üzrə kooperativ təşkilatları özündə təqribən 800 milyondan çox üzvü birləşdirir. Kooperativlərdə 100 milyondan çox işçi və qulluqçu məşğuldur. Müxtəlif sahələrdə fəaliyyət göstərən kooperativlər Avropanın 37 ölkəsində 160 milyon kooperativ üzvünü birləşdirir. 30 min kənd təsərrüfatı koopartivi 600 min iş yeri yaratmşdır. Fəhlə kooperativləri kimi fəaiyyət göstərən 65 min firmada 1,3 milyon işçi məhsul istehsal edir. Eyni zamanda 4,6 min kooperativ bank özündə 38 milyon üzvü və 560 min nəfər işçini birləşdirir. Yaponiyada hər üç ailədən biri hər hansı bir kooperativin üzvüdür. Çində 180 milyon kooperativ üzvü vardır. Hindistanda 504 min kooperatıv özündə 209 milyon üzvü birləşdirir. Afrikanın 13 ölkəsində 14 milyon kooperativ üzvü vardır. ABŞ, Kanada, Argentina, Braziliya, İsrail, İtaliya, Hollandiya və digər ölkələrdə də bu tipli təsisatlar daha geniş miqyaslılığı ilə fərqlənir.

Kooperasiya sahəsində İsrail təcrübəsinin öyrənilməsi və yerli xüsusiyyətlər nəzərə alınmaqla tətbiq edilməsi də xüsusi önəm kəsb edir. Bu ölkədə kollektiv təsərrüfat xüsusiyyətlərinə malik kooperativ kənd təsərrüfatı müəssisəsi funksiysını yerinə yetirən 328-dən çox kibus fəaliyyət göstərir. Kibuslarda kollektivləşmə prosesi uşaqların tərbiyə edilməsindən başlayıb, onların istirahətinin təşkil edilməsinə qədər bir neçə funksiyanı yerinə yetirir və əsasən sərhədyanı rayonlarda yerləşirlər. Buraya kibuslarla yanaşı, moşavaları və digər azad birlikləri də əlavə etsək, məlum olar ki, İsrailin kənd əhalisinin böyük əksəriyyəti müxtəlif birliklərin payçılarıdır və onlar bilavasitə kooperativ məskənlərdə yaşayırlar. Kibusların səmərəliliyi öz üzvlərinə verdiyi maddi gəlirlərlə yanaşı, onlar, həm də yüksək əxlaqi və sosial motivlərə əsaslanır. Kibuslarda sərf edilən əməyin məhsuldarlığının bünövrəsində isə bu cür birgə yaşayış formalarının yaranmasının səmərəliliyi və dəyərliliyinə, böyük daxili inam və üzvlüyün könüllülüyü prinsipləri dayanır. Bərabərlik, birlik, ədalət, həmrəylik, qarşılıqlı yardım və məsuliyyət və s. kimi prinsip, dəyər və normaların realizə edilməsində kibuslar müstəsna əhəmiyyət kəsb edir.

Kənd təsərrüfatı kooperasiyasının modern təşkili və inkişafında Hollandiya təcrübəsinin geniş öyrənilməsi diqqətəlayiqdir. Araşdırmalar göstərir ki, ölkə ərazisinin ancaq üçdə iki hissəsi kənd təsərrüfatına yararlıdır. Onun da 32%-i otlaqlar, 27%-i əkinçilik (bitkiçilik), 9%-i isə meşə massivlərindən ibarətdir. Düzdür, urbanizasiyanın təsiri nəticəsində otlaq sahələri getdikcə azalır. Heyvandarlığın intensiv üsullarla, xüsusən də oturaq qaydada düzgün inkişafı nəticəsində, il ərzində hər baş inəkdən orta hesabla 9 min litrdən çox süd əldə olunur. Bu göstəriciyə görə, dünya miqyasında İsraildən sonra ikinci yeri saxlayır. Bu istiqamətdə aqrar kooperativlərin xüsusi çəkisi 88%-ə bərabərdir. Yerləşdiyi Avropa qitəsində isə pendir məhsulları və kərə yağı istehsalına görə isə 4-cü yerdə qərarlaşıb. Diqqəti cəlb edən məqam odur ki, burada ekoloji təmiz məhsulların istehsalına daha çox önəm verilir.

Xarici ölkələrin təcrübəsi göstərir ki, bu gün kooperativlər əməliyyatların rentabelliyi və bazar şəraitinin qiymətləndirilməsi baxımından çıxış edərək, optimal faiz və tarif siyasətinin yürüdülməsi, satılan məhsulların və göstərilən xidmətlərin həcminin artması — ayrı-ayrı əməliyyatların maya dəyərini aşağı salır və bununla da kooperativ təsisatlar üçün daha rəqabət qabiliyyətli mühitin və bu əsasda da optimal qiymətlərin formalaşmasını təmin edir. Bu sahədə Gənubi Koreya təcrübəsi xüsusi maraq kəsb edə bilər. Belə ki, bu ölkədə kooperativlərin formalaşdırılması və sürətli inkişafında 1960-cı illərdə yaradılmış kredit koopertivlərinin müstəsna rolu olmuşdur. Hazırda isə demək olar ki, ölkənin hər bir kənd məntəqəsində kredit kooperativləri fəaliyyət göstərir. Bu kooperativlər xırda fermer təsərrüfatlarına kredit verməklə yanaşı, həm də kənd əhalisinin əmanətlərini toplayır və marketinq xidməti də göstərirlər. Onlar fəaliyyətə başladıqları ilk 8-10 il ərzində kənd kredit kooperativlərinin 60 %-ə qədəri, fermerlərə krediti kooperasiyanın inkişafına dövlət dəstəyi fondu üçün nəzərdə tutulmuş dövlət büdcəsindən cəlb edilmiş vəsait hesabına formalaşdırmışlar. 1970-ci illərdən başlayaraq belə kooperativ qurumların xüsusi çəkisi 1960-cı illərdəki 60%-dən 20%-ə enmişdir. Çünki aqrar sahibkarlığın inkişafı üçün dövlətin yaratdığı sağlam və şəffaf mühitdən məharətlə istifadə edib, varlanan fermerlərin də kredit təşkilatının kapitalının formalaşması üçün yönəltdikləri şəxsi vəsait, həmin kooperativlərin məcmu kapitalnda 65%-ə yüksəlmişdi. Ən önəmli cəhət isə bundan ibarətdir ki, müqayisə edilən dövr ərzində həmin kredit kooperativin ümumi vəsaitlərinin ümumi həcmi müvafiq olaraq dörd dəfədən çox artmışdır.

Kooperativlərin bütün növləri özlərinün rəqabət qabiliyyətliliyi sayəsində, hətta iri sahibkarların iştirakı olmadan belə, effektiv kənd təsərrüfatı istehsalı və digər kooperativ təsisatlarını təşkil etmək gücündə olan ən mükəmməl təşkilatlardır. Professor B.X.Ataşovun qeyd etdiyi kimi, "...xarici ölkələrdə kənd təsərrüfatı qurumlarına xidmət sahəsində çoxillik, zəngin təcrübə toplanmışdır. Danimarka, İsveç, Norveç, Finlandiya, Niderland və Yaponiyada kooperativ hərəkatı kəndli sahibkarların, demək olar ki, 100% əhatə edilməsi ilə səciyyələnmişdir. Fransa və Almaniyada bu qurumlar bütün müəssisələrin ən azı 80%-ni birləşdirir... Kənd təsərrüfatı kooperasiyasının strukturunda kənd təsərrüfatı məhsullarının emalı və satışı, istehsal vasitələri ilə təchizat, istehsala xidmət və istehsal kooperativlərini fərqləndirmək olar. AİB ölkələrində tədarük-təchizat kooperativləri əmtəə istehsalçıları üçün zəruri istehsal vasitələrinin 50%-i təchiz edir".

Bu baxımdan, İtaliyada kooperasiya prosesinin özünəməxsusluğu diqqəti cəlb edir. Ölkədə kooperativləri özündə birəşdirən 700-dən çox istehlak kooperativ var və fəaliyyət göstərən supermarketlərin 50%-dən çoxu məhz kooperasiya sektoruna məxsusdur. Kooperativlərin böyük əksəriyyətinin səhmdar cəmiyyətlərinə çevrildiyi bir çox ölkələrdən fərqli olaraq, İtaliyada bunun qarşısını almaq üçün, aşağıdakı məhdudlaşdırıcı tədbirlər müəyyən edilmişdir:

—payçının mənfəəti qoyduğu pay məbləğinin 5%-indən çox olmamalıdır;

—ehtiyat kapitalına 20%-dən çox vəsait köçürülə bilməz;

—kooperativin fondu bu təşkilat rəsmi bağlananadək toxunulmaz qalmalıdır;

—qoyulan payın məcmu məbləği isə, bütünlükdə kooperativ üzrə 2 milyon İtalyan lirindən yuxarı ola bilməz. Qoyulmuş payın məbləğindən asılı olmadan, iclaslar zamanı,"bir payçı yalnız bir səsə malikdir" prinsipi əsas meyar hesab edilir və s.

Qardaş Türkiyə Respublikasında da kooperasiyanın inkişafı geniş vüsət almışdır. Hörmətli oxucularımız üçün maraq doğura biləcəyini nəzərə alaraq, həmin ölkədə kooperasiya hərəkatının tarixi və kooperasiya sahəsində tədrisin təşkili haqqında bəzi maraqlı məqamları şərh etmək istərdik. Belə ki, Türkiyədə Respublika qurulmasının ilk illərindən başlayaraq, Mustafa Kamal Atatürk kooperativ hərəkatına xüsusi önəm vermiş, hətta xalqa örnək olması üçün yeni yaranmış iki kooperativin də fəxri üzvü (payçısı) olmuşdur. Atatürk dövründə Türkiyədə kooperativ hərəkatı ilə bağlı həyata keçirilən ən önəmli tədbirlərdən biri də, kooperativ hərəkatının təbliğ-təşviqi, eləcə də bu sahədə təhsilin və tədrisin təşkili olmuşdur. Bu məqsədlə, 1931-ci ildə İstanbul Universiteti nəzdində "Türk Kooperativçilik cəmiyyəti" qurulmuşdur ki, həmin qurum, "Türk Kooperativçilik Qurumu" adı altında Ankarada bu gün də fəaliyyət güstərməkdədir. Digər universiitetlərdə də kooperativ hərəkatına aid fənlərin tədris edilməsinə xüsusi önəm verilirdi Belə ki,"Kooperativ hərəkatı" adlı fənn universitet proqramlarına müstəqil fənn kimi daxil edilmişdi. "Kooperativ şirkətlər" adlı dərslik M.K. Atatürkün "Kooperativ qurmaq, maddi və mənəvi gücləri, zəka və məharətləri birləşdirmək deməkdir!" sözləri ilə başlayıb, "Vətənini sevən hər bir türk kənd və qəsəbə müəllimi, Türkiyəni iqisadi və sosial baxımdan inkişaf etdirəcək bu müəssisənin ölkəmizdə yayılması yolunda son dərəcə səy göstərməyi vicdani və müqəddəs vəzifə kimi görməlidir!" sözləri ilə tamamlanmışdır.

Hazırda Türkiyədə çoxlu sayda aqrar kooperatvlər fəaliyyət göstərir. Bunlar içərisində "Aqrar İnkişaf", "Suvarma", "Su Məhsulları", "Aqrar Kredit", "Aqrar Satış", "Tütün Aqrar Satış", "Mənzil Tikinti", "İstehlak Kooperativləri", "Tacir və Sənətkarlar Təminat", "Kiçik Sənət", "Tədarük Kooperativləri", "Təhsil Kooperativləri", "Nəqliyyat Kooperativləri", "Tərəvəz və Meyvə" və s. kooperativ növləri üstünlük təşkil edir".

Zənnimizcə, respublikamızda da kooperativ hərəkatının müvəffəqiyyətlə inkişaf etdirilməsi üçün beynəlxalq təcrübədən, xüsusilə də Türkiyə təcrübəsindən istifadə edilməsi məqsədə uyğun olardı...

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, qlobal səviyyədə kənd təsərrüfatı və ərzaq məhsulları istehsalı sahəsində fəaliyyət göstərən kooperativlərin illik dövriyyəsi təqribən 768 milyard ABŞ dolları həcmində qiymətləndirilir. Bu isə kooperasiya sahəsində fəaliyyət göstərən bütün qurumların ümumi dövriyyəsinin 26 faizinə bərabərdir. Təhlillər onu göstərir ki, təkcə 2011-2015-ci illərdə yuxarıda göstərilən kənd təsərrüfatı və ərzaq məhsulları kooperativlərinin ümumi dövriyyəsi 25 faizə qədər yüksəlmişdir. Kənd ərazilərində fəaliyyət göstərən kooperativ qurumların 60 faizini kənd təsərrüfatı istehsal kooperativləri, 15 faizini kənd təsərrüfatı istehlak kooperativləri, 25 faizini isə qeyri-kənd təsərrüfatı kooperativləri təşkil edir. Həm də bu gün kooperativ təsərrüfatçılıq formasının dəstəklənməsi əsas və mühüm qlobal çağırışlardan biri kimi qəbul olunur. Təsadüfi deyildir ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Kənd Təsərrüfatının Beynəlxalq İnkişaf Fondu (İFAD) və Dünya Ərzaq Proqramı (WFP) kimi nüfuzlu qurumlar tərəfindən kənd təsərrüfatı kooperativlərinin aqrar sahənin inkişafındakı rolu yüksək qiymətləndirilir. BMT Baş Assambleyasının 31 oktyabr 2011-ci il tarixli 66-cı sessiyasının qətnaməsinə uyğun 2012-ci il "Beynəlxalq kooperativlər ili" elan olunub (fikrimizcə növbəti illərdən birinin respublikamızda da kooperasiya ilinin elan edilməsi bu mühüm sahənin inkişafına xüsusi təkan verə bilər).

Kooperasiya sahəsində beynəlxalq təcrübəyə görə, kooperativlərin fəaliyyəti o zaman daha səmərəli olur ki, insanlar ayrı-ayrılıqda (təklikdə) həll edə bilmədikləri və onlar üçün çətin olan bir sıra problemləri, birlikdə çox asanlıqla həll edə bilirlər. Belə kooperativlərin inkişafı, həqiqətən də, cəmiyyətdə iqtisadi və sosial əməkdaşlığa münbit şərait yaradır. Onların yaradılması və inkişafının mühüm amillərindən digəri isə ölkə əhalisinin müxtəlif təbəqələrinin əməkhaqları səviyyələri arasındakı fərqlərin minimuma endirilməsidir. Belə ki, ölkədə kooperativlərin aqrar və qeyri-aqrar növləri və təşkilati-hüquqi formaları eyni zamanda, bir-birləri ilə əlaqəli şəkildə, həm də paralel olaraq inkişaf etdirilməidir. Təcrübə göstərir ki, dövlətin kooperativləri özünə tabe etdirdiyi ölkələrdə kooperativ hərəkat normal inkişaf edə bilmir. Çünki kooperasiya hərəkatının inkişafı və yüksəlişi, bir qayda olaraq "yuxarıdan" deyil, "aşağıdan" başlamalıdır.

Aqrar kooperasiya həpəkatının modern inkişafı ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi sahəsində aparılan tədqiqatlar göstərir ki, müasir qloballaşma şəraitində artıq bütün dünyada kooperativlər, əhalinin ərzaq və qeyri-ərzaq məhsullarına, eləcə də müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilmişlər. Bu problemlərin həllinə öz münasibətini bildirən iqtisad elmləri doktoru, professor E.A.Quliyev yazır ki, "kənd təsərrüfatı sahələrinin və aqrar sektorun inkişaf etdirilməsində dünya təcrübəsinin mütərəqqi nümunələrinin öyrənilməsi və tətbiqi imkanlarının araşdırılması, bu sahələrdə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, yeni maksimum səmərəli yanaşmaların təmin edilməsi üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi, fermer və kəndli təsərrüfatının müxtəlif formaları ilə universitet və elmi tədqiqat institutları arasında sıx əlaqələrin yaradılması, "biznes elm-təhsil" əməkdaşlığının genişləndirilməsi məqsədəmüvafiq hesab oluna bilər..."

Göstərilənləri nəzərə alaraq, hesab edirik ki, qabaqcıl ölkələrdə olduğu kimi, respublikamızda da kooperativ sektorun sürətli və modern inkişafının təmin edilməsinin vacibliyi artıq birmənalı olaraq, zamanın tələbinə çevrilmişdir. Tam əminliklə vurğulaya bilərik ki, ölkəmizdə dayanıqlı iqtisadi inkişaf tempinin yüksəldilməsi üçün, digər sahibkarlıq subyektləri ilə yanaşı, kooperativ sektorun potensial imkanlarından da istifadə edilməlidir. Lakin bu yalnız o zaman mümkün olar ki, kooperativ sektora təcili surətdə və lazımi dövlət dəstəyi göstərilsin. Belə bir cəhəti də xüsusi vurğulamaq istərdik ki, Azərbaycanda modern kooperasiya fəaliyyəti—kənd təsərrüfatı məhsullarının emalı və satışı ilə yanaşı, iqtisadiyyatın digər sektorlarında, o cümlədən istehlak kooperasiyası, ticarət, mənzil tikintisi, nəqliyyat, təhsil, bank işi, sığorta, kreditləşmə, turizm, təchizat, müxtəlif növ xidmətlər, vencur maliyyəsi və s. daha çox innovativ xarakter daşıyan sahələrdə də canlandırılmalıdır.

Qeyd etdiyimiz kimi, kənd təsərrüfatı kooperasiyası ilə yanaşı, adlarını sadaladığımız, bütün kooperativ növləri, bu vacib sektorun fəaliyyətinin daha da canlandırılması üçün taleyüklü problemlərin həllində daha fəal iştirak etməyə qadir ən etibarlı təkilatlardan biridur. Heç də təsadüfü deyildir ki, yuxarıda qeyd etdiyimiz kimi, BMT-nin Baş Assambleyasının iclaslarında vaxtaşırı olaraq, kooperativ sektorun perspektiv inkişafina dair məsələlər müzakirə olunur. Dünyanın ən mötəbər donor təşkilatları da, bu mühüm sahənin beyəlxalq standartların tələbləri səviyyəsində inkişaf etdirilməsi üçün güzəştli maliyyə yatırımları yönəldirlər. Beynəlxalq əhəmiyyətli banklar və sığorta təşkilatları da böyük məmnuniyyətlə həmin qurumlara irihəcmli, həm də güzəştli şərtlərlə kredit paketləri təklif və təqdim edirlər.

Azərbaycanda kooperasiya sektorunda həyata keçirilən fəaliyyət, ölkə əhalisini istehsal, ticarət xidmət, nəqliyyat, kommunal, tikinti, turizm, təhsil, informasiya texnologiları, ekosistemin qurulması və digər bu kimi sahələrin mülkiyətçisi etməklə yanaşı, eyni zamanda onların yaradıcılıq imkanlarını da aşkara çıxarır və daha da genişləndirir. Təsadüfi deyil ki, dünyanın əksər ölkələrində, məhz kooperativ təsisatların çoxu ölkədə əsaslı dərəcədə sosial-iqtisadi inkişafa təkan verməklə, iqtisadi həyatla bağlı bir sıra problemlərin, o cümlədən yoxsulluq, işsizlik, korrupsiya, gizli iqtisadiyyatın canlanması və s. kimi neqativ halların qarşısının alınmasında mühüm rol oynayır.

Biz də hesab edirik ki, kənd təsərrüfatı kooperasiyasının modern inkişafı - kiçik həcmli və ailə-fermer təsərrüfatlarının inkişafının dövlət tərəfindən dəstəklənməsinə, kənd təsərrüfatı məsullarının istehsalında bölgələr üzrə ixtisaslaşmanın dərinləşməsinə, ərzaq təhlükəsizliyinin təmin olunmasına və bunun əsasən daxili istehsal hesabına təmin edilməsinə, fermerlərin "Aqrolizinq" servislərinin xidmətlərindən səmərəli istifadə etməklə, müasir kənd təsərrüfatı üçün lazımi texnika ilə, daha sərfəli qiymətlərlə təchiz edilməsinə və həyata keçiriləcək digər islahat yönümlü tədbirlər nəticəsində, daxili bazarın qorunması və xarici bazara sərbəst çıxışının təmin edilməsinə tam şərait yaradılacaqdır.

Müşahidələr göstərir ki, daim yenilənən texnologiyaları kiçik aqrar subyektlərdə tətbiq, icarə əsasında texnikadan istifadə etmək, iqtisadi baxımdan qeyri-mümkündür. Halbuki məhsuldarlığın artırılması, rəqabət qabiliyyətinin gücləndirilməsi üçün yeni texnologiyaların tətbiqi çox vacibdir. Qeyd olunduğu kimi, kooperativ təşkilat formasının hüquqi bazasının yaradılmasının əsas məqsədlərindən biri - məhz aqrar subyektlərin böyüməsinə nail olmaq və torpaq becərilməsinin iqtisadi səmərəsini təmin etməkdir.

Bu gün Azərbaycanda kənd təsərrüfatı kooperasiya fəaliyyətinin daha da təkmilləşdirilməsi və modernləşməsi istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilir ki, onlar arasında ən mühümlərindən biri də—aqroparkların təşkili və inkişafıdır. Onun əhəmiyyət haqqına artıq yuxarıda qeyd edildi. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi"ndə göstərildiyi kimi, "...aqroparklar yerli və xarici investorları cəlb edən biznes mühitinin yaradılması üçün bir sıra məqsədyönlü tədbirlərin həyata keçirilməsinə şərait yaradır. Aqropark modeli kompleks müəssisələrlə müqayisədə daha yüksək səviyyədə mərkəzləşmiş və geniş miqyasda fəaliyyət göstərən emal mərkəzlərinin yaradılmasına xidmət edərək klaster (qruplaşdırma) yanaşması əsasında qurulur. Aqroparklar logistika infrastrukturuna yaxın yerləşməklə yerli və xarici bazarlara çıxış imkanlarını artırır, ixracın lazımi səviyyədə reallaşmasına və beynəlxalq investorların cəlb edilməsinə şərait yaradır". Sözsüz ki, bu fəaliyyət aqrar sahibkarlıq potensialının yüksəlməsi, kooperasiya yönümlü yeni fəaliyyət növlərinin inkişafına münbit şəraiti formalaşdırmaqla yanaşı, modern texnologiyaların tətbiqi və mənimsənilməsi tədbirlərinin gücləndirilməsi, habelə digər tədbirləri də əhatə edir...

Burada bir məqama toxunmağı da zəruri hesab edirik. Qeyd edək ki, tərəfimizdən yaradılan "Kooperasiyanın İnkişafına Dəstək" İB, ölkə Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi əsasında "Kənd təsərrüfatı kooperativlərinin yaradılması və fəaliyyəti ilə bağlı kənd təsərrüfatı məhsulları istehsalçılarına institusional yardım" layihəsini həyata keçirir. Layihənin məqsədi—kənd təsərrüfatı fəaliyyətilə məşğul olan müxtəlif fiziki və hüquqi şəxslərə aqrar kooperativlər haqqında bilgi vermək, onları mövcud normativ aktlar və beynəlxalq təcrübənin uğurları ilə tanış etmək, həmçinin onlara yeni iş yerlərinin açılması və məşğulluğun təmin olunmasında bu qurumların rolu ilə tanış etməkdir.

Layihə çərçivəsində Sabirabad, Kürdəmir, Zaqatala və Qax rayonlarının hər birində fermerlər üçün məlumatlandırma təlimlərinin keçirilməsi nəzərdə tutulub. Artıq Sabirabad rayonu Kənd Təsərrüfatı İdarəsində həmin tədbir yüksək səviyyədə keçirilməklə, fermerlərin böyük marağına səbəb olub. Tədbirdə iştirak edən KTN-in nümayəndəsi də onun əhəmiyyətini yüksək qiymətləndirmiş və bu tip görüşlərin mütəmadi keçirilməsinin zəruriliyini vurğulamışdır. Diqqəti çəkən məqam odur ki, məhz həmin gün Sabirabad rayonunun iki kəndində, AR KTN-in dəstəyi ilə modern aqrar kooperasiya qurumunun fəaliyyətə başlaması ilə bağlı tədbir həyata keçirilmişdir.

Hesab edirik ki, müasir dövrdə kənd təsərrüfatı kooperativlərinin səmərəli və dayanıqlı fəaliyyətini təmin etmək üçün həlli vacib aşağıdakı məsələlərin reallaşdırılması zəruridir:

—aqrar kooperasiya prosesinin modernləşməsi yönümlü zəruri fəaliyyət istiqamətlərinin, o cümlədən dövlət dəstəyi tədbirlərinin davam etdirilməsi;

—daxili bazarın səmərəli qorunması, eyni zamanda fermerlər, xüsusən də kiçik və orta istehsalçılar üçün əlverişli daxili və xarici bazar mühitinin yaradılması;

—bu istiqamətlərə uyğun olaraq, səmərəli kooperasiya əlaqələrinə əsaslanan təsərrüfatçılıq strukturlarının, o cümlədən aqroparklar və digər aqrobiznes strukturlarının yaradılması təcrübəsinin daha da genişləndirilməsi;

—inkişaf etmiş ölkələrin qabqacıl təcrübəsindən yararlanmaqla, aqrar sahədə kooperativ hərəkatına dair təbliğat-təşviqat işlərinin gücləndirilməsi;

—aqrar kooperasiyanın institusional bazasını təkmilləşdirən və fəaliyyətin səmərəliliyini stimullaşdıran daha əlverişli iqtisadi mühitin formalaşdırılması;

—kooperativ sektorda çalışanlar, eləcə də özəl qurumlar üçün kənd təsərrüfatı və kooperasiya ilə bağlı tədris-təbliğat-təşviqat xarakterli müxtəlif kitab, broşür və müxtəlif əyani vəsaitlərin hazırlanması, bu sahə üzrə dövri mətbuatda silsilə yazıların dərc edilməsi, televiziya, radio, müxtəlif saytlar və s. kütləvi informasiya vasitələrindən istifadə etməklə bu vacib sahədə əldə edimiş nailiyyətlərin təşviq edilməsi, yol verilmiş nöqsanların isə aradan qaldırılması yollarının göstərilməsi və s.

**Həsən İSRAFİLOV,**
**iqtisad elmləri doktoru,**
**Əməkdar müəllim.**
**ADİU (UNEC).**